# Şuşa dərdinə dərman olan qəhrəman



*Rasim Abdullayev hərbi xidmət zamanı*

Azərbaycanın əzəldən başı bəlalar görüb. Əhalisi neçə dəfə öz dədə-baba yurdundan qovulub, didərgin düşüb. Ancaq keçən il başlayıb bitməsinə rəğmən, min il keçsə belə, yaddaşlardan silinməyən Vətən müharibəsi son didərginliyimiz, dərdimiz olan Qarabağ dərdini də qəlbimizdən apardı. Bir dərd silindisə də, can dərdlərimiz qaldı. 2881 Dərd buna misaldır. Onlar Azərbaycanın yaralı qəlbinin dərdinə dəva oldular, xalqımızın illərlə gözlədiyi anı gerçəkləşdirdilər, Dəmir Yumruq olub Zəfəri əldə etdilər.... Biz Qarabağlı, Şuşalıyıqsa, o 2881 Can sayəsindədir...

Həmin canlardan biri də öz dərdinə dəva axtarırdı, təbib olsa belə... Acısını kağıza köçürüb, cansız kağızı şeirlərinin, acılarının məskəni etmişdi... Şeirlə dərdini, acısını bölüşürdü. Həssas ürəyi var idi. Onun ailəsini, dədə-babasını düz 2 dəfə yurdundan didərgin salmışdılar. Dərələyəzdəki deportasiyadan sonra min ümidlə Kəlbəcərə köçən Abdullayevlər bu məskəndən də qovulmuşdular. Lakin Rasim Qarabağa qayıdışımızı gerçəkləşdirdi, ailəsinin qaçqın damğasını sildi. O, könüllərimizi sağaldıb içində qızıldan taxt quran, canı bahasına canlar xilas edən, sonuncu dəfə gözünü Şuşada yuman və bir daha açmayan Qəhrəman Şəhid polkovnik-leytenant Rasim Abdullayevdir!.. Rasim Abdullayev 1975-ci il fevralın 21-də Kəlbəcər rayonunun Milli kəndində Yaqub Abdullayev və Nübar Qasımovaların ailəsində anadan olub. Onun nəsli 1918-ci ilə qədər Dərələyəzdə məskunlaşmış, 1918-ci ildə ermənilər tərəfindən Azərbaycanlıların kütləvi şəkildə deportasiyası zamanı yurdlarından qovularaq Kəlbəcər rayonunun Milli kəndində məskunlaşmışlar. Rasim Abdullayevin ailəsində 7 nəfər olub – özü, atası Yaqub, anası Nübar, qardaşı Əvəz və bacıları Yeganə, Aybəniz, Əntiqə. Rasim Abdullayev 1982-ci ildə Kəlbəcər rayon Milli kənd tam orta məktəbinin birinci sinfinə qəbul olmuşdur və 1990-cı ilə qədər orada təhsil almışdır. 80-ci illərin sonu, 90-cı illərin əvvəli Ermənistanın Qarabağla bağlı iddiaları nəticəsində Azərbaycanla Ermənistan arasında qarşıdurma – Birinci Qarabağ müharibəsi başlayır. Müharibənin yeni-yeni alovlandığı 1990-cı ildə Rasim Kəlbəcər şəhər 1 saylı tam orta məktəbdə təhsilini davam etdirmişdir. Müharibənin ən qızğın vaxtları olan 1992-ci ildə Rasim məktəbi bitirərək Azərbaycan Tibb Universitetinə qəbul olmuşdur. Kəlbəcər işğal olunan zaman Rasim universitet tələbəsi idi. 1998-ci ildə ATU-dan məzun olan Rasim Abdullayev 2000-ci ilə qədər Sumqayıt şəhər 1 nömrəli xəstəxanasında interna keçmişdir.

Sumqayıt şəhər 1 nömrəli xəstəxanasında interna keçdikdən sonra 2000-ci ildə könüllü olaraq Azərbaycan Silahlı Qüvvələrinin tibb xidmətində hərbi tibb qulluqçusu olaraq vəzifəsinə başlamışdır. İlk xidməti 2000-ci ildə Əhmədbəyli hospitalında olmuşdur. 2005-ci ildə bu hospitalda xidmət etdikdən sonra 2005–2015-ci illərdə Mərkəzi Hərbi Poliklinikada terapiya şöbəsində müxtəlif vəzifələri, o cümlədən, şöbə rəisi vəzifəsini yerinə yetirmişdir. 2010-cu ildə 10 illik qüsursuz xidməti dəyərləndirilmiş və Müdafiə nazirinin müvafiq əmrinə əsasən "Qüsursuz xidmətə görə 3-cü dərəcəli" medalı ilə təltif edilmişdir. 2015-ci ildə 15 illik qüsursuz xidməti dəyərləndirilmiş və o, Müdafiə nazirinin müvafiq əmrinə əsasən "Qüsursuz xidmətə görə 2-ci dərəcəli" medalı ilə təltif edilmişdir. 2015-ci ildən 2016-cı ilin sonunadək Gəncədə yerləşən hərbi poliklinikada rəis vəzifəsində çalışmışdır.

2016-cı il aprelin 1-dən 2-nə keçən gecədən başlayaraq Azərbaycan və Ermənistan Silahlı Qüvvələrinin bölmələri arasında cəbhənin Tərtər və Cəbrayıl-Füzuli istiqamətlərində şiddətli döyüşlər başlamışdır. Tarixə Aprel döyüşləri olaraq yazılan hərbi əməliyyatlar zamanı Rasim Abdullayev hərbi tibb qulluqçusu və Gəncə Hərbi Poliklinikasının rəisi idi. O, döyüşün qızğın nöqtələrində qalan yaralı zabitlərə yerindəcə tibbi yardım göstərir. Bu xidmətlərdən sonra 2016-cı ilin sonları, 2017-ci ilin əvvəlləri onun iş yeri dəyişdirilmiş və Rasim Abdullayev Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində tibb xidməti rəisi vəzifəsinə təyin olunmuşdur.



*Rasim Abdullayevin şəhid olmasından 30 dəqiqə qabaq çəkdiyi son şəkli.*

2020-ci ilin əvvəllərinə qədər bu vəzifəni yerinə yetirən Rasim Abdullayev son vəzifəsinə — Silahlı Qüvvələrin "N" saylı hərbi hissəsində tibb bölüyünün komandiri vəzifəsinə təyin olunmuş və Vətən müharibəsi başlayana qədər bu vəzifəni yerinə yetirmişdir. 2020-ci il sentyabrın 27-də səhər saat 06:00 radələrində Ermənistan Silahlı Qüvvələrinin bölmələri tərəfindən genişmiqyaslı təxribat törədilmişdir və cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqeləri və yaşayış məntəqələri iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutulmuşdur, nəticədə ölənlər və yaralananlar olmuşdur.[5] Bu barədə məlumat Azərbaycan Prezidenti İlham Əliyevə məruzə ediləndən sonra səhər saatlarında Ermənistan Silahlı Qüvvələrinin döyüş fəaliyyətinin qarşısını almaq məqsədilə Azərbaycan Silahlı Qüvvələrinin Komandanlığı tərəfindən cəbhəboyu zonada hücum əməliyyatlarının başlaması barədə qərar verilmişdir. Qarabağ münaqişəsi tarixinə münaqişəyə son qoyan Vətən müharibəsi kimi yazılan bu hərbi əməliyyatları zamanı polkovnik-leytenant Rasim Abdullayev "N" saylı hərbi hissənin tibb bölüyünün komandiri idi. O, Hadrut istiqamətində gedən döyüşlərin ən qızğın nöqtələrində qalmış yaralılara yerindəcə tibbi yardım göstərirdi. Şəhid olduğu günə, yəni Vətən müharibəsinin son gününə qədər 100-dən çox yaralıya döyüş meydanındaca tibbi yardım göstərmişdi. Həmçinin, Abdullayev qarşı tərəfin işğalından yeni-yeni azad olunan, təhlükəli ərazilərə gedir, oradakı yaralılara tibbi yardım göstərirdi.

Ailəsi ilə canlı olaraq 26 sentyabrda, telefonla isə 9 noyabrda sonuncu dəfə əlaqə saxlamışdır.

Rasim Abdullayevə müharibənin son dəqiqələri, üçtərəfli bəyanat imzalanandan bir müddət əvvəl Şuşa istiqamətində qalmış yaralıların çıxarılması ilə bağlı tapşırıq gəlir. Rasim Abdullayev öz istəyi ilə və bu tapşırığa əsasən hərbi tibb maşını ilə Hadrut-Şuşa yoluna çıxır. Xocalı rayonunun Çanaqçı kəndi istiqamətində, Şuşaya az qalmış Abdullayevin maşını meşədə gizlənən qarşı tərəfin zabitləri və əsgərləri tərəfindən pusquya düşür. Bu zaman açılan atəşlərdən yaralanan Rasim Abdullayev qəhrəmancasına Şəhidlik Zirvəsinə yüksəlmişdir. İllərlə yurdunda olmayan Şəhidimizin ruhu Kəlbəcər göylərində əbədi cövl etmişdir. Müqəddəs nəşi II Fəxri Xiyabanda torpağa tapşırılmışdır. Şəhidimiz ailəli idi, Vətənə əmanət 2 oğlu yadigar qaldı...

Rasim Abdullayev müxtəlif məzmunlu 100-dən çox şeirin və hekayənin müəllifi idi. Bu şeirlərdən olan "Tələsmə" şeiri Rasim Abdullayev şəhid olduqdan sonra uzun müddət gündəmdən düşməmiş və bir çox xəbər saytlarında işıqlandırılmışdır.

Rasim gözlərinə görünməyəcək,  
Bu həsrət heç kimlə bölünməyəcək,  
Xatirəm beynindən silinməyəcək,  
Bir gün səni qınıyacaq, tələsmə!..  
"Tələsmə", Rasim Abdullayev...

Şəhid Rasim Abdullayev Ali Baş Komandan Cənab İlham Əliyev tərəfindən Şəhadətindən sonra "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Şəhidimiz Vətən müharibəsinin son günü dastanının son sözlərini yazdı, dastana dönən 44 günü yaşamağa layiq oldu və 44-cü günündə Şəhadətə layiq oldu... Allah Şəhid Rasim Abdullayev başda olmaqla, bütün Şəhidlərimizə rəhmət eləsin! Amin!

***06.05.2021.***



***Sevindik NƏSİBOĞLU***